(Əvvəli 7-ci səhifədə).

# Keyfiyyətli toxum bol məhsul deməkdir

Bu vacib məsələ mütləq nəzərə alınmalı, taxıl əkini ilə məşğul olan fermer və torpaq sahibkarlarının hər biri səpin normasını müəyyənləşdirmək üçün toxum nümunələrini rayon dövlət toxum müfəttişliyinin laboratoriyasında analiz etdirməli və onun səpin üçün keyfiyyətini göstərən şəhadətnamə aldıqdan sonra toxumlar dərmanlanmalı və kisələrə yığılmalıdır. Bir etiket kisələrin içərisinə, digər etiket isə kisələrin üzərinə bərkildilməlidir. Bu amili nəzərə aldıqdan sonra toxumların normasını dəqiq hesablamaq olar. Fərz edək ki, səpiləcək toxumun təmizliyi 99 faiz, cücərmə qabiliyyəti 95 faizdir. 1000 ədəd dənin kütləsi 45 qramdır. Bu toxumlardan hektara 4 milyon ədəd cücərmə qabiliyyətinə malik olanları səpilməlidir. Beləliklə, 1 hektar sahəyə 4 milyon cücərə bilən toxum səpmək üçün 191,4 kiloqram dən götürülməlidir və toxum səpən aqreqatı 191,4 kiloqram səpin normasına nizamlamaq lazımdır.

Qeyd olunmalıdır ki, taxılçılıqla məşul olan əkinçilər toxumun basdırılma dərinliyini də nəzərə almağı unutmamalıdırlar. Aqrotexniki təcrübəyə görə toxum mexaniki tərkibcə yüngül torpaqlarda 5-6 sm dərinliyə, mexaniki tərkibcə ağır gilliceli torpaqlarda isə 3-5 sm dərinliyə basdırılmalıdır. Toxum suvarma şəraitində dayaz, dəmyə əkinçiliyində dərin, nəmli qata atılmalıdır.

Məlum məsələdir ki, Azərbaycanın dövlət rəhbəri taxılçılığın, o cümlədən toxumçuluğun inkişafına xüsusi diqqət və qayğı göstərir və bununla bağlı bir çox sərəncam və normativ hüquqi sənədlərə imza etmişdir. «Toxumçülüq haqqında», «Taxıl haqqında» sərəncamlar və s. qanunlar bu sahələrin hüquqi aspektlərini tənzimləyir.

**Rafiq ABDULKƏRİMOV,**
**rayon dövlət toxum müfəttişliyinin rəisi.**

# İstirahət saatlarında

## Atanın hədiyyəsi

Kiçik qız atasından soruşur:

—Ata, mən nə vaxt böyüyəcəyəm?

Ata:

—18 yaşın olanda, qızım.

Qız:

—18 yaşım olanda mənə nə alacaqsan?

Ata:

—Hələ çox var ona, 18 olsun, baxarıq.

Qızın 17 yaşı olanda ürəyində qüsur olduğu ortaya çıxır. Xəstəxanaya gətirilir. Həkimlər atasına qızının vəziyyətinin ağır olduğunu deyirlər. Atası qızının yanına gəlir.

Qız:

—Mən yaşamayacağam, ata? 18 yaşım olmayacaq?

Ata heç nə demir və başını aşağı salır...

Uzun illər 18 yaşının tamam olmasını gözləyən qızı məyus, atanınsa qəlbi qan ağlayır.

Qızı əməliyyat edirlər və o sağalır. Sən demə həmin gün qızın 18 yaşı tamam olurmuş. Qız əməliyyatdan sonra ayılır, yorğanın üstündə qoyulmuş kağız parçası görür və götürüb oxuyur: "Sən 18 yaşımda mənə nə hədiyyə edəcəksən? - deyə soruşmuşdun. Mən sənə öz ürəyimi hədiyyə etdim, qızım. Ad günün mübarək!".

**Türkcədən çevirən**
**Vüsal SƏMƏDOV.**

## Övlad hədiyyəsi

İşdən evə qayıdan ata ən qiymətli kitabının mizin üstündə qayçılandığını görür. Üç yaşlı qızı "Bağışla, ata, mən etmişəm" deyir. Ata əsəbləşib qızını tənbeh edir, körpə qız hönkürtü vurub ağlayır. Səhəri gün ata başı üzərində dayanmış qızının səsinə oyanır:

—Ad gününü təbrik edirəm!—deyir qız.

O, ötən gün kitabın cildindən düzəltdiyi qutunu atasına hədiyyə verir. Ata əvvəlcə təşəkkür edir. Sonra qutunun içini boş görüb qızını tənbeh edir. Qız ağlaya-ağlaya deyir:

—Atacan, mən o qutuya səninçün 100 öpüş qoymuşam, nə üçün görmürsən?!

## Əzizimiz Qadir

*Səni ad gününün münasibətilə təbrik edir. Sənə təhsildə həyatda uğurlar xoşbəxtlik, cansağlığı arzulayırıq. Həmişə xoş sədanı eşidək, əziz balamız.*



***Babaların Qüdrət, Əsabəli, nənələrin Tamella, Səmayə, atan Səmәd, anan Samirə, əmin Vüsal, bibin Vəfa, dayın Valeh, xalan Günel.***

## Qısa ömrünə sevinən insan

**(Hekayə)**

Küçə qapısının arxamca cingiltili örtülməsi ilə arxadan adımı eşitdiyim bir oldu. Qonşum Tahir idi. Ayaq saxladım. Xərçəng xəstəliyindən əziyyət çəkən qonşumun bu yaxınlarda boynundan əməliyyat olunduğunu bilirdim. "Sabah keçib bir xəbər bilərəm" deyə-deyə özümü arxayınlaşdırmış, indi onu görəndə bu "sabahların" məni utandırıb üzümü qızartdığını, sifətimin yandığından hiss etdim... Onun yanına keçməməyimin "səbəbini fikirləşirdim" ki, onun üzündəki təbəssümü görüb bu fikrimdən vaz keçdim. Sevincini qıyılmış gözlərindən oxumaq çətin deyildi...

-Üzün gülür, ay Tahir, xeyirdimi-heç nə olmayıbmış kimi soruşdum...

O mənə yaxınlaşıb əməliyyatdan sonra çətinliklə tərpətdiyi boynunu hərəkətsiz saxlayıb, gözləri ilə ətrafı süzərək, sözlərinin kiminsə eşidəcəyindən qorxurmuş kimi asta səslə dedi:

—Xəstəxanadan gəlirəm. Həkim sarğını açdı.

Bir an söhbətinə ara verib sevincək əlavə etdi:

—Hə, dedi ki hələ üç ay da yaşayacaqsan...

Ayağımın altından yer qaçdı elə bil. Ürəyimin sancısı məni yolun kənarındakı işıq dirəyinə tərəf əydi. Yıxılmamaq üçün sağ əlimlə bu dirəyə sarılmış məftildən yapışdım. Qonşum sol əli ilə boynuna sarılmış dəsmalı tutub, sağ əli ilə mənə qalxmağa kömək elədi. Üzünə baxa bilmirdim.Bilmirdim həkimin ünvanına "dişimin dibindən çıxanı" deyim, yoxsa onun "sevincinə" şərik olduğumu bildirim?!.

Təcili işim olduğunu bəhanə edib oradan uzaqlaşdım...

Qarşımda ölümünün "vaxtını" bilən insan dayanmışdı.Və bu barədə sevinclə danışan bir insan...Hər keçən saniyəsinə heyifsilənib, sonrakı dəqiqəsini qənimət bilən bir insan...

Nə etmək olar?!. Tanrının qisməti bu imiş, onun üçün...

**Valeh ƏZİZOV,**
**"Şərq"ictimai-siyasi qəzetinin bölgə müxbiri.**

# ELANLAR

Qəbələ Dövlət Texniki inventarlaşdırma və mülkiyyət hüquqlarının qeydiyyatı idarəsi tərəfindən Nic qəsəbə sakini **Kuşnari Araz Qriqori oğlunun** adına verilmiş reystr kitabı № 1\17, inventar işi № 596 olan **Qeydiyyat vəsiqəsi** itdiyi üçün etibarsız sayılır.

---

Azərbaycan Respublikası Nazirlər Kabineti Yanında Mənzil-Kommunal Təsərrüfatı Komitəsi Azərtexinventarlaşdırma istehsalat idarəsi Texniki invetarlaşdırma bürosu tərəfindən İ. B. Qutqaşınlı küçəsi ev №-25, mənzil № 22-də yaşayan **Ağababayev Qurbanəli Ramazan oğlunun** adına verilmiş inventar nömrəsi 1729 olan **Texniki pasport** itdiyi üçün etibarsız sayılır.

---

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz əmlakın Dövlət Reyestri Xidməti 9 saylı Ərazi idarəsi tərəfindən Nic kənd sakini **Nəsirli Emil Rüfət oğluna** verilmiş Reyestr № 406013060320 seriya RX № 0592090 olan **Hüquqların Dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın Dövlət Reyestrindən çıxarış** itdiyi üçün etibarsız sayılır.

---

Azərbaycan Respublikasının Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti Qəbələ Rayon Ərazi İdarəsi tərəfindən **Əhmədov Rövşən Rahib oğlunun** adına verilmiş seriya MH № 0003224, reyestr nömrəsi 406013002207, qeydiyyat nömrəsi 190702718, qeydiyyat tarixi 20.06. 2007 olan **Hüquqların Dövlət Qeydiyyatı haqqında Daşınmaz Əmlakın Dövlət Reyestrindən Çıxarış** itdiyi üçün etibarsız sayılır.

## Lobyanın faydaları

Lobya tərkibində A.B, C, B2, B6 və K vitaminləri ilə yanaşı kalium, kalsium, dəmir və maqnezium mineralları bol olan, zülal baxımından çox zəngin qida məhsuludur. Həm quru həm də təzə halda yeyilən bu qida həzmi asanlaşdırır, sidik yollarını təmizləyir. Böyrəklər üçün faydalıdır, lobya böyrək ağrılarını yüngülləşdirir, böyrək qumlarının və daşlarının tökülməsinə kömək edir. Bundan başqa sinədəki xəstəlikləri və öskürəyi sağaldır.

Bədəndə Dopomin çatışmazlığı parküson xəstəliyinə yol açır. Lobya isə təbii dopomin mənbəyidir. Lobyanın tərkibində olan lütein maddəsi gözlər üçün faydalıdır. Paxla qanın tərkibində xolestrinii aşağı salır və qan şəkərini nizamlayır. Bundan başqa lobya baş ağrılarını azaldır. Dəri üçün də son dərəcə faydalıdır. Xüsusi qeyd etmək lazımdır ki, lobya bişirilən gün yeyilməlidir. Bişirilldikdən bir neçə gün sonra yeyilən lobya qara ciyər üçün ziyanlıdır.

Sonda onu qeyd edək ki, lobya rayonumuzun hər yerində yetişdirilə bilən, çox zəhmət tələb etməyən kifayət qədər məhsullar bitkidir.

Redaktor
O. Ə. Məmmədov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

Məsul növbətçi:
Q. C. Səmədov.

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «E-Q» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Tiraj 2300.
Oxucu məktubları geri qaytarılmır.